# "Bir xəzri əsəydi, bir pəncərə sınaydı..."



Aprelin 1-də Xalq şairi, ustad Rəsul Rzanın Fəxri xiyabandakı məzarı önündə onun unudulmaz xatirəsini dərin qədirbilənliklə yad edən sənətdaşları böyük sənətkarın bu unudulmaz misraları boyunca düşünməkdəydi ki, "bir xəzri əsəydi, bir pəncərə sınaydı", sükuta dalmış bütün aləm silkinib də daş yuxularından oyanaydı. Bir möcüzə baş verəydi. Və bütün ölümlər yalan olaydı. Enişli-yoxuşlu ömürlərin sevincli-kədərli səhifələri yenidən vərəqlənəydi. Olmayaydı:

*- Allo,*
*- Allo!*
*- Kimi?*
*- Yoxdur,*
*- Yoxdur,*
*- Yoxdur! -*

*ağrısı, nisgili, kədəri... Olmayaydı -*

*Burda şahmat oynayırdı,*
*Burda yeni əsərlərini oxuyardıq,*
*Burda gülüşlərin tökərdi süfrəyə -*
*Tikanlı güllər kimi -*

*xatırlaması, nostalji təəssüfü...*

Dərin sayğılı o anım günündə ustad şairin bu unudulmaz misralarıydı dünyanın yalan gününü unutduran, yaddaşları oyadan ən etibarlı bağlantı, yaddaş kodu. Dünyanın işığı və qara rəngi bir məzar başında nəfəs alırdı. Burdan üzü sabahlara yol başlayırdı. "Bu qaranlıqdan keçmişə bir ağrı, göynək pəncərəsi açılır"dı.

Ustad Rəsul Rzanın unudulmazlığından, ölməz sənətindən söz açırdı qələmdaşları: AYB-nin katibləri Elçin Hüseynbəyli, Səlim Babullaoğlu, tanınmış yazıçı və şairlərdən Yusif Həsənbəy, Səyyad Aran...

Sonda Xalq yazıçısı, AYB-nin sədri Anar ailəsi adından Rəsul Rzanın xatirəsini əziz tutanlara təşəkkür etdi.

Həyata qalib gəlib, qalib gedənlərin ruhu sevinirdi o gün...

***Sərvaz HÜSEYNOĞLU***

